# *Kanadadan təbrik:* Necə sevinməyəsən, bu, dünya azərbaycanlılarının həmrəyliyi günüdür

**Azərbaycanlıların həmrəylik günü dünyanın hər yerində olduğu kimi, Kanadada da yaşayan soydaşlarımız tərəfindən böyük sevgi və təntənə ilə qeyd edilir. Kanadada ilk azərbaycanlı professor Arzu Sərdarlı uzun illərdir ki, ailəsi ilə birgə bu ölkədə yaşayır. O, tətbiqi riyaziyyat və yarımkeçiricilər fizikası sahələrində ixtisaslaşıb və hazırda Kanadanın First Nation Universitetində çalışır. Onunla Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində qürbətdəki fəaliyyəti ilə bağlı söhbətləşdik:**

**– Arzu müəllim, necə oldu ki, Kanadaya getdiniz?**

– Mən əvvəlcə ailəmlə birgə Ukraynada yaşayıb fəaliyyət göstərmişəm. Gənc alim olaraq, keçən əsrin 90-cı illərində Ukraynada ölkə başçısının gənc alimlərə verdiyi təqaüdü alırdım. SSRİ-nin süqutu illəri idi. Artıq sosial-iqtisadi böhran başlamış, vəziyyət çətinləşmişdi. Uzun müddət düşündükdən sonra başqa ölkəyə köçməyi qərara aldıq. Beləcə, 1999-cu ilin martında biz Kanadaya köçdük. Kanadada məskunlaşdıqdan sonra elmi işçi kimi çalışmağa başladım. Hazırda pedoqoji fəaliyyətlə məşğulam. Həyat yoldaşım da elm adamı, ziyalı xanımdır. Uşaqlarımız da burada böyüyüb təhsil alıblar. Lakin biz hər zaman azərbaycanlı kimi milli dəyər və ənənələrimizi qoruyub saxlayırıq. Mən ömrümün çox hissəsini Vətəndən kənarda yaşasam da, daim azərbaycançılıq məfkurəsinə bağlıyam. İnsan harada olur-sa-olsun, özünü azərbaycanlı hiss edirsə, milli hisslərini qoruyub saxlayırsa, o, daim Vətəninə, xalqına bağlı olur və övladlarını da o ruhda böyüdür. Açığı, Kanadada özümü daha çox azərbaycanlı hiss edirəm. Görünür, insan Vətəndən uzaqda olanda, onun soykökü, mənsub olduğu xalqa, Vətənə bağlılığı daha da güclənir. Mənə elə gəlir ki, azərbaycançılıq, Vətəninə, millətinə sevgi və ehtiram şəxsin daxilindən, qanından, canından gəlməlidir. Məndə də belədir. Ukraynada yaşayanda da diaspor işinə töhfələr verməyə çalışmışam, ən fəal üzvlərdən olmuşam.

**– Kanada cəmiyyətində azərbaycanlı olaraq, milli mədəniyyətimizi, dəyərlərimizi yaşatmaq və tanıtmaq sizin üçün çətin deyil ki?**

– Kanadada müxtəlif xalqların nümayəndələri yaşayırlar. O cümlədən azərbaycanlılar da. Təbii ki, hər bir xalq özü ilə öz milli mədəniyyətini, düşüncə



tərzini də buraya gətirib. Odur ki, azərbaycanlı olaraq, biz cəmiyyətə inteqrasiya etsək də, öz milli kimliyimizi, adət və mədəniyyətimizi qoruyub saxlayır, yaşadırıq. First Nation Universitetində çalışıram. On iki ildir, burada elmi-pedoqoji fəaliyyətlə məşğulam. Araşdırmalarım təkcə fizika deyil, ekologiya və statistika kimi istiqamətləri də əhatə edir. Mənə professor adı verilərkən "Sən bu adı alan ilk azərbaycanlısan." – fikrini eşidəndə çox qürurlandım. Bu, mənim üçün həqiqətən də böyük uğur idi. Vətəndən uzaqda, Azərbaycan adına verilmiş bir töhfə idi. Hazırda elmi fəaliyyətimi davam etdirirəm. Azərbaycanla da elmi əlaqələrim var. AMEA-nın Radiasiya Problemləri İnstitutu ilə əməkdaşlıq edirəm. Elmi məqalələrim çap edilir.

Uşaqlarımın da elmə marağı böyükdür. Qızım və oğlum ali təhsil alıblar. Qızım hələ məktəbdə oxuyarkən Kanadada riyaziyyat olimpiadasında birinci yer tutmuşdu. Çikaqo Universitetində doktorantura pilləsində təhsil alır. Kanadada müxtəlif şəhərlərdə məskunlaşmış soydaşlarımızı diaspor təşkilatları bir araya gətirir, diasporumuz azərbaycanlıların milli ideya və dəyərlər ətrafında toplaşmağına dəstək göstərir. Onların sayəsində milli mədəniyyətimiz, musiqimiz və Azərbaycan həqiqətləri Kanada cəmiyyətinə çatdırılır. Düşünürəm ki, Kanadada, ümumiyyətlə, Vətəndən kənarda yaşayan hər bir soydaşımız Azərbaycanın könüllü elçisidir. Onların hər bir uğuru Vətənin ən yüksək şəkildə təbliğidir.

**– Planetin dörd bir tərəfinə səpələnmiş soydaşlarımıza, xalqımıza bayram təbriklərinizi eşitmək istərdik.**

– Azərbaycanın hər bir əziz bayramını ailəmizdə böyük sevinclə qeyd edirik. Xalqımızın əsrlərdir ki, yaşatdığı Novruz bayramı və eləcə də 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ailəmiz üçün olduqca önəmlidir.

--Milli təfəkkür, ürəyi Vətən eşqi ilə döyünən soydaşlarımızın Vətənə məhəbbət və sədaqət ətrafında birləşməsi və həmrəylik nümayiş etdirməsi bir millətin yaşaması üçün vacib şərtdir. Xalqımız müdrik, əməksevər, istedadlı qəhrəman xalqdır. Həmrəy olduqda, birlik olduqda, çox işlər görə bilir. Kanadada yaşasaq da, Azərbaycanın regionda və beynəlxalq arenada artan nüfuzu, uğurları bir azərbaycanlı olaraq, bizi çox sevindirir. Azərbaycana hər gələndə Bakının daha da müasirləşib gözəlləşdiyini görürəm. Ürəyim dağa dönür. Yeni tikililər, istirahət məkanları, parklar paytaxtı daha da gözəlləşdirir. Arzu edirəm ki, üzümüzə gələn Yeni ildə Azərbaycan daha da inkişaf etsin, lider dövlətlər sırasında öz yerini qoruyub saxlasın. Şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin problemləri yetərincə həll olunsun. Belə bayramların Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad ediləcək torpaqlarımızda qeyd olunması qəriblikdə yaşayan azərbayucanlıların ən böyük arzusudur.

***Müsahibəni apardı: Əfsanə BAYRAMQIZI, "Xalq qəzeti"***